1_Layout 1 28.02.2024 10:04 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 4 (668)

29 fevral 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# DÜNYAYA ÖRNƏK OLAN AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Dünyaya örnək olan Azərbaycan-Türkiyə münasibətləri" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqın böyük etimadını qazanaraq növbəti dəfə dövlət başçısı seçildikdən sonra ilk rəsmi səfərini məhz Türkiyə Cümhuriyyətinə etməsi bir daha Azərbaycan və Türkiyə qardaşlığının tarixi ifadəsi oldu. Artıq onilliklərdir ki, belə rəsmi səfərlər ölkələrimiz arasındakı münasibətlərin qürur doğuran xoş ənənəsinə çevrilib.

Azərbaycan və Türkiyə qarşılıqlı əməkdaşlığının yüksək səviyyəsi hər iki ölkə üçün son dərəcə mühüm əhəmiyyəti ilə şərtlənir. Azərbaycan və Türkiyə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səyləri nəticəsində müttəfiq, strateji tərəfdaş olan, güclü iqtisadi, mədəni əlaqələrə malik iki ölkədir. Bu səfər proqramı çərçivəsində dövlət başçılarının səsləndirdikləri bəyanatlar, gələcəyə strateji baxışı əks etdirən fikirlər münasibətlərin ən yüksək həddinin, ikitərəfli əlaqələrin hazırkı yüksək səviyyəsinin məntiqi nəticəsidir.



### Qarşılıqlı güvən

Türkiyə Azərbaycanın müstəqilliyini tanımış ilk dövlətdir. 1992-ci ilin yanvarından isə ölkələrimiz arasında diplomatik münasibətlərin təməli qoyulub və həmin ilin avqustunda Azərbaycanın Türkiyədə səfirliyi fəaliyyətə başlayıb. Sonrakı illərdə - 1993-cü ildə Azərbaycanın İstanbulda, 2004-cü ildə Qarsda baş konsulluqları təsis edilib. Türkiyənin hazırda Azərbaycanın digər böyük şəhərlərindən Gəncədə və Naxçıvanda da baş konsulluqları fəaliyyətdədir.

Azərbaycan və Türkiyə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində dostluq və əməkdaşlıq münasibətlərinin ən yüksək nümunəsini ortaya qoyur. Ölkələrimizin təşəbbüsü və yaxından iştirakı ilə reallaşdırılan irimiqyaslı layihələr təkcə Azərbaycan və Türkiyənin deyil, ümumilikdə regionun inkişafında həlledici rol oynayır.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP kimi meqalayihələr qardaş ölkələrlə yanaşı, bütün bölgənin inkişafına mühüm töhfələr verir.

Azərbaycan və Türkiyənin beynəlxalq və regional təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində koordinasiyalı fəaliyyəti, bir-birinə qarşılıqlı dəstəyi parlaq bir örnəkdir. Azərbaycan-Türkiyə əlaqələrinin belə yüksək inkişafı regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına güclü təminat yaradır. Bu münasibətlər, həmçinin türkdilli ölkələr və xalqlar arasında birliyin və əməkdaşlığın gücləndirilməsini şərtləndirən ən mühüm amillərdən birinə çevrilib.

Əlbəttə, hazırda bütün dünyaya nümunə olan Azərbaycan və Türkiyə münasibətlərinin bu səviyyəyə gəlib çatmasında ortaq tarixi köklərin, iqtisadi əlaqələrin, dövlət maraqlarının, gələcəyə birgə baxışın təsiri də əhəmiyyətlidir. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı şəxsi dostluq və qardaşlıq münasibətləri bu əlaqələrin daha da möhkəmlənməsi və inkişafını şərtləndirən əsas amillərdəndir.

### Tarixin sınağından çıxmış strateji müttəfiqlik

Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin təmin olunması ilə başa çatan 44 günlük Vətən müharibəsi ölkələrimiz arasındakı münasibətlərdə yeni bir tarixi salnaməyə çevrildi. Qardaş Türkiyə haqq savaşımızın hər anında Azərbaycanın yanında idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsən özünün hərbi əməliyyatların ilk saatlarında Azərbaycana açıq, dəqiq və birmənalı dəstəyini ifadə etməsi xalqımıza böyük ruh verdi. Əsgər və zabitlərimizin döyüş qüdrətini daha da yüksəltdi. Türkiyə kimi qlobal proseslərə əhəmiyyətli təsir imkanlarına malik güclü bir dövlətin yanımızda olması, hərtərəfli dəstəyini bəyan etməsi işğalçı Ermənistanın havadarlarına da yerlərini göstərdi. Azərbaycanla təhdid dili ilə danışmaq istəyənlər, müharibəyə müdaxilə etmək fikrinə düşənlər qarşılarında Türkiyəni də görərək dayanmalı oldular. Belə bir birgəlik "dəmir yumruğ"a çevrildi. Bu tarixi qələbəmizin rəmzi kimi tarixə yazılan Zəfər paradında da Azərbaycan və Türkiyə prezidentləri yanaşı durdular. Öz çıxışlarında xalqlarımızın və ölkələrimizin qardaşlığının sarsılmazlığı barədə çox əhəmiyyətli və aydın bəyanatlar səsləndirdilər. Bu, bütün dünyaya dəqiq mesajlar idi.

2021-ci ilin 15 iyununda isə bu möhtəşəmlik iki ölkənin daha bir tarixi addımı ilə davam etdi. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həmin tarixdə qələbəmizin simvollarından olan Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nə imza atdılar.

Tarixə "Şuşa Bəyannaməsi" kimi həkk olunmuş bu mühüm sənəd iki qardaş ölkə arasındakı münasibətlərin tamamilə yeni bir mərhələsidir. "Şuşa Bəyannaməsi" Azərbaycan və Türkiyənin strateji müttəfiqlik münasibətlərini rəsmi səviyyədə təsbit etdi. Bu sənəddə öz əksini tapan strateji müttəfiqlik məsələləri iki qardaş dövlət arasında bütün sahələrdə sıx əməkdaşlığı, habelə təhlükəsizlik və müdafiə sahələrində qarşılıqlı yardım prinsiplərini əhatə edir.

Azərbaycan Prezidenti İlham Əliyev qardaş ölkədə verdiyi bəyanatda xüsusi vurğulayıb: "Bu gün Müttəfiqlik Bəyannaməsini əsas götürərək biz bütün məsələlərdə bir yerdəyik, bir nöqtəyə vururuq. Biz öz gücümüzə güc qatırıq və təbii ki, Türk dünyasının birləşməsi, ortaq köklərə sahib olan xalqların bir arada olması Türk Dövlətləri Təşkilatının hər bir üzvünü gücləndirəcək". O cümlədən, Türkiyə ilə Azərbaycanı və Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsində mühüm rol oynayacaqdır. Azərbaycan və Türkiyə arasındakı əlaqələrin daha da möhkəmlənməsində, regionumuzda sabitliyin və təhlükəsizliyin qorunub saxlanılmasında "Şuşa Bəyannaməsi"nin müstəsna rolu var.

Azərbaycan da hər zaman qardaş Türkiyənin yanındadır. Qardaş ölkənin sevinci sevincimiz, kədəri kədərimizdir. Ötən ilin fevralında ölkəmizin Türkiyədə dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında göstərdiyi qardaşlıq dəstəyi, cəmiyyətimizin yüksək həmrəyliyi bunun bir nümunəsi idi.

### Doğma bir ailənin üzvü - Türk dünyası

"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki çıxışı zamanı bu məqamı xüsusi vurğuladı.

Bu gün Azərbaycan və Türkiyə ümumən Türk dünyasının mərkəzinə çevrilir. Başqa türkdilli ölkələri də bu münasibətlər ətrafında bir araya gətirir. Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərinə malikdir və aparılan bu siyasət bu qurumu gücləndirməkdədir. Yaxın gələcək üçün bu təşkilat potensial qlobal güc kimi çox böyük perspektivlər ortaya qoyur. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın da doğma bir ailənin üzvü kimi daxil olduğu Türk dünyasının gələcəyini belə görür: "Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Azərbaycan və Türkiyənin qarşılıqlı səyləri buna xidmət edərək türk dövlətlərinin bu təşkilat çərçivəsində sıx birliyini daha da gücləndirir, Türk Dövlətləri Təşkilatının qlobal önəmini, miqyasını və rolunu yüksəldir. Asiya ilə Avropanı birləşdirən trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin davamı olan Orta dəhliz ideyasının reallaşmasına doğru atılan addımlar Türk dünyasının beynəlxalq məkana inteqrasiyası ilə yanaşı, olduqca güclü iqtisadi potensialı özündə ehtiva edir.

Bu gün iki ölkə arasında hərbi sahədə əməkdaşlıq əlaqələri də inkişaf edir, Azərbaycanla Türkiyənin birgə ordu quruculuğu istiqamətində atdığı addımlar möhtəşəm nəticələr verir. Azərbaycan Prezidentinin bir neçə gün əvvəl Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın iştirakı ilə izləməsi bunun bir təzahürü oldu.

Azərbaycan və Türkiyə təhsil, texnologiyalar sahəsində də əməkdaşlıq əlaqələrini gücləndirir. Cənab İlham Əliyevin qardaş ölkəyə rəsmi səfəri zamanı "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu"nun imzalanması, bu sənəd çərçivəsində Türkiyə-Azərbaycan Universitetinin yaradılmasının nəzərdə tutulması böyük nailiyyətlərə yol açacaqdır.

Məlum olduğu kimi, bu il ölkəmiz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29 tədbirinə evsahibliyi edəcək. Azərbaycan və Türkiyə COP29 çərçivəsində də fəal əməkdaşlıq edir və birgəliyimizin gücü ilə dünyamız üçün sülh, təhlükəsiz inkişaf dəyərləri yaradır.

# Daxili işlər naziri Saatlı rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 22-də Saatlı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Saatlı rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Sabirabad, Beyləqan, İmişli, Saatlı, Füzuli və Xocavənd şəhər və rayonlarından qəbula gələn 215 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

35 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 154 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 28.02.2024 10:10 Page 1



# GENERAL-POLKOVNİK VİLAYƏT EYVAZOV QAZAXISTANLI HƏMKARI İLƏ GÖRÜŞÜB



Fevralın 15-də Qazaxıstan Respublikasının daxili işlər naziri polis general-leytenantı Erjan Sadenovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə ikigünlük rəsmi səfərə gəlib.

Nazir Erjan Sadenov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri səlahiyyətlərini icra edən general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan general-polkovnik V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə polis general-leytenantı Erjan Sadenovu təbrik edərək bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladaraq hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Qazaxıstan Respublikasının daxili işlər naziri polis general-leytenantı Erjan Sadenov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, həyata keçirilən islahatlar barədə general-polkovnik V.Eyvazova məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.





Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

**DİN-in Mətbuat xidməti**

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ NÜMAYƏNDƏLƏRİ DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİ İLƏ TANIŞ OLUBLAR

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Fəzail Həsənov, Murad Babayev və Vəli Quliyev fevralın 20-də Daxili Qoşunların Ali Hərbi Məktəbində olublar.



İlk olaraq, Ali Hərbi Məktəbin ərazisi ilə tanış olan qurumun əməkdaşları daha sonra brifinq və sinif otaqlarına, yataqxanaya, yeməkxanaya və tibb məntəqəsinə ümumi baxış keçiriblər. İnsan hüquqları, eləcə də hərbi qulluqçuların hüquqları, Ombudsmanın fəaliyyət istiqamətləri barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.



Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatının əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirməsi nəzərdə tutulur.

**Mətbuat xidməti**

# SAĞLAMLIĞIN KEŞİYİNDƏ AYIQ-SAYIQ XİDMƏT



67987 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları uğurla icra edir.

Tibb məntəqəsinin rəisi tibb xidməti leytenantı Firuz Mənəfzadə bildirdi ki, xidmət gündəlik olaraq öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir.

Gün ərzində tibb xidmətinin hərbi qulluqçuları tərəfindən xəstələrin ambulator qəbulu, onlara yardım göstərilməsi, təyinatların icrasına nəzarət, həmçinin xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılması həyata keçirilir.

Eyni zamanda qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur.

Tibb məntəqəsində aptek rəisi gizir Abdulla Babayev, sanitar-dezinfektor baş çavuş Aysel Əsədova vəzifələrinin



icrasına məsuliyyətlə yanaşırlar. Gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

**kapitan Xədicə Hacızadə**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ HƏR ZAMAN ÖNDƏ OLAN BÖLMƏ

Hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi qulluqçularımızın silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.



16075 saylı hərbi hissənin xüsusi təyinatlıları da qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Hərbi hissədə olarkən dəstənin şəxsi heyətinin nümunəvi xidmət apardığının bir daha şahidi olduq. Hərbi hissənin komandiri polkovnik İlkin Gözəlov xüsusi təyinatlı dəstənin yüksək döyüş hazırlığına görə hər zaman fərqləndiyini, dəstənin şəxsi heyətinin əzmkar xidmətini diqqətə çatdırdı.

Vəzifə borclarından irəli gələn tələblərdən danışan dəstə komandiri mayor Ələsgər Muxtarov hava şəraitindən asılı olmayaraq, təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyət təlimlər zamanı qarşıya qoyulan tapşırıqları məsuliyyətlə icra edir.



Mayor Ə.Muxtarov şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının yüksəldilməsi üçün əlindən gələni əsirgəmir. Bildirdi ki, şəxsi heyətin gündəlik fəaliyyəti Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir: "Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Dözümlüyü artırmaq məqsədilə fiziki hazırlıq məşğələsində qısa və uzaq məsafələrə qaçış, həmçinin maneələr zolağının keçilməsi məşq etdirilir. Təlim və məşğələlərin müvafiq plana əsasən müntəzəm olaraq keçirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların peşə vərdişlərinin, o cümlədən döyüş qabiliyyətlərinin daha da təkmilləşdirilməsinə xidmət edir. Deyərdim ki, xüsusi təyinatlı dəstə döyüş hazırlığı, xidməti fəaliyyəti ilə hər zaman öndə olan bölmədir".



Dəstənin döyüş hazırlığının yüksəldilməsinin qayğısına qalan xüsusi təyinatlı dəstə komandirinin müavini – qərargah rəisi mayor Fərid Sucayev tələblərə uyğun olaraq xidmətini təşkil edir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının yüksəldilməsində isə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Rəvan Abışovun əməyi danılmazdır. Hər birimizə məlumdur ki, hərbi qulluqçuların döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri də onların mənəvi-psixoloji durumudur. Belə ki, sözügedən sahədə vacib məsələ ictimai-siyasi hazırlıq məşğələsi və tərbiyə işinin təşkilində şəxsi heyətlə vətənpərvərlik mövzusunda söhbətlərin aparılmasıdır. Eyni zamanda tərbiyə işinin təşkilində fərdi yanaşma prinsipinə üstünlük verən mayor R.Abışov hərbçilərin xidmətdə və xidmətdən sonrakı fəaliyyətini diqqətdə saxlayır. Onun fikrincə, tabelikdə olanlara qarşı tələbkarlıq və qayğının paralelliyi ilə yanaşı, hər bir hərbçinin psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi üçün fərdi söhbətlərin aparılması çox önəmlidir.

Şəxsi heyət arasında nümunəvi xidmət edən hərbi qulluqçulardan baş leytenant Abdulla Məhərrəmov, baş çavuşlar Zahid Axundov, Musa Qədirov, Əhməd Cahangirli, çavuşlar Adəm Əmənov, Elvin Cabbarov üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirir və döyüş təcrübələrini hərbi qulluqçularla bölüşürlər.

**kapitan Nigar Ağayeva**

# 35 YAŞLI HƏRBİ HİSSƏ

Fevralın 23-də 16075 saylı hərbi hissənin yaradılmasının 35-ci ildönümü tamam olub. Bu münasibətlə hərbi hissədə təntənəli mərasim keçirilib. Mərasimdə şəhid hərbi qulluqçuların ailə üzvləri və veteranlar iştirak ediblər.

Hərbi hissəyə gələn qonaqların iştirakı ilə şəhidlər abidəsinin önünə əklil və gül dəstələri qoyulub. Şəhid silahdaşlarımızın əziz xatirəsinə ehtiram göstərilib.

Sıra meydanında keçirilən mərasimdə hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Aftandil Budaqov hərbi hissə komandirinin 1-ci müavini - qərargah rəisi polkovnik-leytenant Zaur Bağırova şəxsi heyətin düzülüşü barədə raport verib. Aparıcı, qərargah rəisinin döyüş təlimi üzrə müavini kapitan Fuad İsmayılov mərasimin planını elan edib.






Ümummilli Lider Heydər Əliyevin, həmçinin ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş şəhid hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Sonra Dövlət Himni ifa olunub.

Polkovnik-leytenant A.Budaqov hərbi hissənin tarixi, döyüş yolu və bugünkü həyatı barədə çıxış edib. O, 1989-cu il fevralın 23-də hərbi hissənin fəaliyyətə başladığını, 1991-ci ilin dekabr ayında Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tabeliyinə verildiyini bildirib. Qeyd edib ki, hərbi hissə şərəfli xidmət və döyüş yolu keçib. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, eləcə də ölkədaxili ictimai asayişin və təhlükəsizliyin mühafizəsində şəxsi heyət öz fədakarlığı ilə fərqlənib. Birinci Qarabağ müharibəsi dövründə 17 nəfər (3 nəfər itkin düşüb), Vətən müharibəsi zamanı isə 6 nəfər hissənin hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Hərbi hissədə onların xatirəsinə abidə yaradılıb.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini deyib ki, ötən 35 ildə hərbi hissə zəngin xidmət təcrübəsi toplayıb və şəxsi heyət komandanlığın etimadını doğruldub, xeyli sayda hərbi qulluqçu müxtəlif mükafatlara layiq görülüb.

Şəxsi heyətin dövlətimizə və xalqımıza ləyaqətlə xidmət etdiyi, qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdiyi vurğulanıb. Zabit, gizir, çavuş və əsgərlərin Ulu Öndər Heydər Əliyevin ideyalarına, dövlətçiliyimizə, hərbi ənənələrə sadiq olduqları, döyüş və mənəvi-psixoloji hazırlıq prosesində yüksək nəticələr əldə etdikləri diqqətə çatdırılıb.

Çıxışda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun rəhbərliyi altında qoşunlarda həyata keçirilən geniş quruculuq işləri çərçivəsində hərbi hissənin də maddi-texniki bazasının möhkəmləndirildiyi, müasir xidmət və məişət şəraitinin yaradıldığı, yeni silah-sursat, xüsusi vasitələr və texnikaların şəxsi heyətin istifadəsinə verildiyi bildirilib.



Polkovnik-leytenant A.Budaqov çıxışının sonunda şəxsi heyəti, şəhid ailələrinin üzvlərini, veteranları hərbi hissənin yaradılmasının 35-ci ildönümü münasibətilə təbrik edərək, xidmətdə və həyatlarında uğurlar arzulayıb.

Daxili qoşunların baş idarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun təbrikini şəxsi heyətə çatdırıb.

Daxili qoşunların veteranlar şurasının sədri Çingiz Daşdəmirov, veteranlar Səfxan Bayramov, Həşim Bünyatov və şəhid atası Nizami Hüseynov mərasimdə çıxış edərək əlamətdar gün münasibətilə şəxsi heyətə öz ürək sözlərini söyləyiblər. Hərbi hissənin dövlətçiliyimizin qorunmasında mübariz xidməti, torpaqlarımızın işğaldan azad olunmasına qürurverici döyüş fəaliyyəti, bu gün onun sıralarında şəhidlərin və veteranların layiqli davamçılarının xidmət etmələri xüsusi vurğulanıb.

Hərbi hissə komandirinin şəxsi heyətin mükafatlandırılması barədə müvafiq əmri elan olunub. Xidmətdə fərqlənən hərbi qulluqçulara mükafatlar təqdim edilib.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Yalçın Abbasov**

## NAXÇIVANDA ŞƏHİD HƏRBİ QULLUQÇUMUZUN XATİRƏSİ ANILIB



2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağda Silahlı Qüvvələrimiz tərəfindən erməni işğalçılarına qarşı uğurla həyata keçirilən antiterror tədbirləri nəticəsində bölgədə ölkəmizin suverenliyi tam bərqərar olunub. Antiterror tədbirləri zamanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 17072 saylı hərbi hissəsinin 12 nəfər hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Onlar xüsusi vasitələrin tətbiqi dəstəsində xidmət ediblər. Şəhadətə yüksələn döyüşçülərdən biri gizir Rəcəbov Vaqif Yaqub oğludur. Yaşasaydı, bu il 42 yaşına qədəm qoyacaqdı.

Fevralın 23-də Naxçıvan şəhərində şəhidin doğum günü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini polis polkovnik-leytenantı Zahid Gözəlov, deputatlar, müxtəlif qurumların təmsilçiləri, ictimaiyyət nümayəndələri, tələbələr, şagirdlər, şəhid ailələrinin üzvləri, qazilər, veteranlar, hərbi qulluqçular, polis əməkdaşları və Vaqifin anası Məryəm Rəcəbova, qardaşı Emil Orucov, həyat yoldaşı Elnurə Rəcəbova, digər doğmaları iştirak ediblər.

Öncə Vaqifin məzarı ziyarət edilərək üzərinə gül dəstələri qoyulub, ruhuna dualar oxunub. Naxçıvan şəhərindəki "Cahan" mərasim evində təşkil olunan tədbirdə Ümummilli Lider Heydər Əliyevin, eləcə də respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb. Sonra Dövlət Himni səsləndirilib.

Naxçıvan şəhər icra hakimiyyəti başçısı aparatının vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədovun aparıcısı olduğu tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsi zamanı düşmən üzərində möhtəşəm qələbə qazanmasından, dövlət başçısının sərkərdəlik qüdrəti, xalqımızın birliyi, qeyrətli oğullarımızın qəhrəmanlığı sayəsində torpaqlarımızın işğalına son qoyulmasından, 24 saata yaxın davam edən antiterror tədbirləri nəticəsində isə Qarabağda ölkəmizin suverenliyinin tam bərpa olunmasından danışıblar. Döyüş meydanında şəhidlərimizin və qazilərimizin göstərdikləri hünər nümunələrinin gənclərə dəyərli örnək olduğu vurğulanıb. Belə igid oğulları yetişdirmiş valideynlərə, onların tərbiyəsində əməklərini əsirgəməmiş müəllimlərə dərin minnətdarlıq ifadə olunub. Diqqətə çatdırılıb ki, hər bir şəhid döyüşçü missiyasını ləyaqətlə yerinə yetirib, son nəfəsinədək hərbi anda, əcdadlarımızın mənəvi ruhuna sadiq qalıb.

12565 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi - baş təlimatçısı mayor Orxan Seyidov gizir V.Rəcəbovun fədakar xidmət və döyüş yolu barədə məlumat verib. Hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları gizir Ağa Şıxəliyev və əsgər Valid Bədirxanov şəhidin vaxtilə xidmət etdiyi bölmənin şəxsi heyətinin onunla qürur duyduğunu, Vaqifin göstərdiyi şücaətlərdən ruhlandıqlarını deyiblər.

Şəhidin qardaşı Emil Orucov Vaqifin xatirəsinə göstərilən ehtirama, belə bir yaddaqalan tədbirin təşkilinə görə ailəsi adından dərin minnətdarlığını bildirib.

Mərasim evində şəhidin adına ehsan verilib.

Fevralın 23-ü Vaqifin qızı Nurtənin də doğum günü olduğu üçün bir qrup veteran və qazi, həmçinin könüllülər şəhidin ailəsinə baş çəkərək onun övladını təbrik ediblər.

**Mətbuat xidməti**

## RUH YÜKSƏKLİYİ AŞILAYAN GÖRÜŞ

Fevralın 17-də 67987 saylı hərbi hissədə Daxili Qoşunların sıralarında xidmət etmiş və döyüş yolu keçmiş bir qrup müharibə, habelə Silahlı Qüvvələr veteranı ilə görüş keçirilib. Veteranlar hərbi hissənin şəhid hərbi qulluqçularının xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edərək önünə gül dəstələri qoyublar. Şəhidlərin əziz xatirəsi ehtiramla anılıb.

Sonra hərbi hissənin ərazisində yerləşən Daxili Qoşunların Muzeyi ilə tanışlıq olub. Qonaqlara muzeyin ekspozisiyası, eləcə də tərtibatındakı yeniliklər barədə məlumat verilib, qoşunların xidməti-döyüş fəaliyyətini əks etdirən fotostendlər və eksponatlar veteranlarda xüsusi maraq doğurub.



Şəxsi heyətlə keçirilən görüşdə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Tədbir iştirakçıları Dövlət Himnini ifa ediblər.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Zamin Rəsulov veteranları şəxsi heyətə təqdim edib.

Daxili qoşunların baş idarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov tədbirdə çıxış edərək bu il ikinci dəfə veteranların şəxsi heyətlə görüşünün keçirildiyini, bu ənənənin davamlılığının vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, veteranlarla hər bir görüş hərbi qulluqçularımızda ruh yüksəkliyi yaradır, onlarda vətənpərvərlik əqidəsinin formalaşmasında mühüm rol oynayır.



Vətən Müharibəsi Qəhrəmanı, hərbi hissənin komandiri polkovnik Zəfər Yusibov qonaqları salamlayaraq, tədbirə qatılan veteranların bir çoxunu şəxsən tanıdığını, onların şərəfli yol keçərək layiqincə xidmət etdiklərini vurğulayıb. O bildirib ki, veteranların xidmət və döyüş təcrübəsi çox qiymətlidir, öyrənilməsinə, təbliğ olunmasına həmişə ehtiyac var.

Komandir dövlətimiz tərəfindən veteranlara mənəvi və maddi qayğı göstərildiyini, xalqımızın onlara dərin hörmət bəslədiyini deyib.

Daxili qoşunların veteranlar şurasının sədri Çingiz Daşdəmirov öz çıxışında şəxsi heyətə görüşdən məmnun olduğunu deyərək, söyləyib ki, veteranların öyüd-nəsihətləri, tövsiyələri heç vaxt təsirsiz qalmır. Veteranlar qoşunların həyatı ilə yaxından maraqlanır, əldə olunan uğurlara qəlbən sevinirlər. Onlar öz təcrübələrini bölüşməyə daim hazırdırlar.

Veteranlar şurasının sədri fevralın 7-də ölkəmizdə keçirilmiş növbədənkənar prezident seçkiləri zamanı xalqımızın müzəffər liderinə - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə səs verdiyini, onun siyasi kursunu növbəti dəfə dəstəklədiyini, öz rəhbərinə sarsılmaz inamını ifadə etdiyini deyib. Qalib dövlətə çevrilməyimiz, bölgədə güc sahibi olmağımız, eləcə də dünyada nüfuzumuzun daha da artması möhtərəm Prezidentimizin xalqımız qarşısında tarixi xidmətidir.

Veteran Murad Mürsəlov Daxili Qoşunların şəxsi heyətinin Ümummilli Liderimiz Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə, dövlətçiliyimizə, hərbi anda sədaqətinin haqlı qürur hissi yaratdığını vurğulayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hərbi qulluqçularımızın xidməti-döyüş fəaliyyətlərinin yüksək qiymətləndirildiyini xatırladıb.

Murad müəllim müsbət nailiyyətlərin və ənənələrin qorunub saxlanılmasının əhəmiyyətindən, veteranların tərbiyə prosesində rolundan danışıb. O, Vətən mövzusunda yazdığı şeiri də səsləndirib.

Veteranlar şurasının üzvü Səfxan Bayramov Daxili Qoşunların formalaşması tarixi, o cümlədən Birinci Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri zamanı hərbi qulluqçularımızın keçdikləri şərəfli döyüş yoluna dair maraqlı məlumatları nəzərə çatdırıb. Qeyd edib ki, 67987 saylı hərbi hissə də çətin sınaqlardan keçib, şəxsi heyət ön cəbhədə üzərinə düşən vəzifələri mətinliklə yerinə yetirib.

S.Bayramov mənəvi-psixoloji hazırlıq amilinin hərbi xidmətdə rolu, təbliğat-təşviqat işinin aktuallığı, veteranların fədakarlıq nümunələri barədə fikirlərini açıqlayıb.

Veteranlar şurası sədrinin müavini Telman Aslanov zəngin həyat və xidmət təcrübəsindən irəli gələn bəzi məqamlara toxunub, hərbi qulluqçulara öz tövsiyələrini söyləyib.

T.Aslanov Daxili İşlər Nazirliyinin rəhbərliyinə və Daxili Qoşunların komandanlığına veteranlarla hərbi hissələrdə görüşlərin keçirilməsinə, onların fəaliyyətlərinə verdikləri dəstəyə görə dərin minnətdarlığını bildirib.

O, şəxsi heyətə xalqımızın təhlükəsizliyi keşiyində mübariz xidmətində uğurlar arzulayıb.

Görüşə yekun vuran hərbi hissənin komandiri polkovnik Z.Yusibov veteranlara şəxsi heyət adından minnətdarlığını bildirərək belə tədbirlərin şəxsi heyətin vətənpərvərlik tərbiyəsinə önəmli töhfə verdiyini vurğulayıb.

Tədbirdən sonra veteranlar şəxsi heyətlə birlikdə xatirə şəkli çəkdiriblər.

**Yalçın Abbasov**

4_Layout 1 28.02.2024 10:17 Page 1



# ŞƏXSİ HEYƏT MƏDƏNİYYƏT MƏRKƏZLƏRİ VƏ ŞƏHİDLƏR XİYABANINDA OLUB

Şəxsi heyətin mənəvi tərbiyəsi, ictimai-siyasi biliklərinin artırılması, dövlətçilik təfəkkürünün formalaşdırılması baxımından tarixi məkanlara, mədəniyyət abidələrinə, muzeylərə və sərgi mərkəzlərinə ekskursiyalar maarifləndirici rol oynayır. Daxili Qoşunların hərbi hissələrində belə tədbirlər davamlı olaraq təşkil edilir.



Fevralın 25-də 16077 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin təlimatçı-psixoloqu



baş leytenant Fəzail Rzaquliyevin rəhbərliyi altında bir qrup şəxsi heyət Bərdə Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Dövlət Rəsm Qalereyası ilə tanış olub. 4088 ədəd eksponatın qorunaraq saxlanıldığı muzeydə hərbi qulluqçularımıza rayonun coğrafiyası, tarixi, mədəni irsi, etnoqrafiyası, məişəti, adət-ənənələri, sosial-iqtisadi inkişafı, quruculuq mərhələləri, görkəmli şəxsiyyətləri barədə məlumat verilib. Arxeoloji qazıntılar zamanı tapılan əşyalar, bu yurdun sənətkarlıq nümunələri, qədim Bərdənin maketi muzeyin tərtibatında xüsusi yer tutur. Ekspozisiyada rayonun həyatının müxtəlif sahələrinə aid materiallar öz əksini tapıb.



Ümummilli Lider Heydər Əliyevin, habelə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Bərdəyə səfərləri, ölkəmizin müstəqilliyi, eləcə də ərazi bütövlüyü uğrunda xalqımızın mübarizəsi, 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı şanlı hərbi zəfər, işğaldan azad edilən torpaqlarımıza qayıdış, şəhidlərimiz mövzularında fotostendlər və sənədlər xüsusi maraq doğurub.

Bərdə Dövlət Rəsm Qalereyasında hərbi qulluqçularımıza maraqlı rəsmlər və eksponatlar təqdim olunub. Qalereyada Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin, görkəmli şairlərimizin portretləri, yerli rəssamların rəngarəng əsərləri diqqəti cəlb edib. Vətənimizin gözəl təbiətinə, nemətlərinə, memarlığına aid rəsmlər zövqlə işlənib. Bərdənin dəmiryol şəbəkəsini əks etdirən maket, qrafika, heykəltaraşlıq, dekorativ-tətbiqi sənət nümunələri yaradıcı əməyin bəhrəsi olaraq ərsəyə gətirilib.

Hərbi qulluqçularımız muzey və qalereyadan zəngin təəssüratla ayrılıblar.

Həmin gün şəxsi heyət tərəfindən Bərdə şəhərindəki Şəhidlər xiyabanı ziyarət olunub, orada dəfn edilmiş şəhidlərin əziz xatirəsi ehtiramla anılıb. Şəhid hərbi qulluqçumuz çavuş Ceyhun Rzayevin məzarı üzərinə gül dəstələri qoyulub.

**Yalçın Abbasov**

# KEÇİRİLƏN TƏLİMLƏR DÖYÜŞ QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ BAŞLICA ROL OYNAYIR

Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim mərkəzində hərtərəfli şərait mövcuddur. Burada Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrinin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də atəş hazırlığının ən






vacib hissəsi olan praktiki atəş çalışmalarını yerinə yetirirlər.

Təlim mərkəzinin rəisi mayor Umruz Məmmədov hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından burada yaradılan şəhərciklərin əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu da sözlərinə əlavə etdi. Təlim mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi.



### Üzərinə düşən vəzifələri uğurla yerinə yetirən bölmə

Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim mərkəzinin yüksək döyüş hazırlığının qorunub saxlanılmasını buradakı təminat bölüyü həyata keçirir. Bölük komandiri kapitan Samir Cabarov əvvəlcə bölüyün üzərinə düşən vəzifələrdən danışdı. Bildirdi ki, təminat bölüyünün şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları uğurla icra edir. Təlim mərkəzinin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışlarının təmin edilməsi, atış sahələrinin hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən tədris siniflərinin hazırlanması, ərazinin səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.

Kapitan S.Cabarov qarşıya qoyulan vacib və əhəmiyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malik olan leytenant Eynur Vəliyevin komandiri olduğu operatorlar taqımının fəaliyyəti barədə də danışdı. Gündəlik olaraq operatorlar taqımının şəxsi heyəti ilə ixtisasına uyğun məşğələlərin keçirildiyini bildirdi.

Operatorlar taqımının nümunəvi, bacarıqlı hərbi qulluqçularından gizir Səxavət Əsgərov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş əsgər Seymur Rəhimov, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından əsgərlər Üzeyir Musayev və Hilal Məlikəliyevin adlarını çəkən komandir onların hər birinin verilən tapşırıqların icrasında fərqləndiyini qeyd etməyi unutmadı.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR ·YENİLİKLƏR ·

### İsrail Müdafiə Qüvvələri üçün zirehli maşınlar satın alınacaq

İsrail Müdafiə Qüvvələri üçün 200-dən çox zirehli nəqliyyat vasitəsi satın alınacaq. “Poliqon” İsrail Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadən xəbər verir ki, satınalmanın təxmini dəyəri 40.7 milyon ABŞ dolları olaraq qiymətləndirilir.

Bildirilib ki, yeni alınacaq zirehli maşınlar İsrail Müdafiə Qüvvələri tərəfindən patrul əməliyyatlarında istifadə olunacaq və insidentlər zamanı çevik reaksiyanı təmin edəcək.



*İdman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİ YERƏ LAYİQ GÖRÜLÜB



Fevralın 23-də Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında güc çoxnövçülüyü üzrə yarış keçirilib.

Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda keçirilmiş yarışda Daxili Qoşunların yığma komandası 5 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Məlumat üçün bildirək ki, 12 komanda arasında keçirilən yarışda Daxili Qoşunların komandası 1-ci, Sumqayıt Şəhər Polis İdarəsinin komandası 2-ci, Əlahiddə Çevik Polis Alayının komandası 3-cü yerə layiq görülüblər. Komandalar müvafiq dərəcəli kubok və diplomlarla mükafatlandırılıblar.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# XÜSUSİ TƏYİNATLI ÖZ MƏSLƏYİNƏ SADİQDİR

67987 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından olan baş çavuş Hüseyn Quliyev 1997-ci ilin yanvar ayının 3-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı kənddəki şəhid Malik Piriyev adına tam orta məktəbdə alıb. 2014-cü ildə orta təhsilini tamamlayıb. 2015-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılan Hüseyn 17071 saylı hərbi hissədə hərbi xidmət keçib. 2016-cı ilin oktyabr ayından isə müddətdən artıq həqiqi hərbi xidmətdədir.



67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin atıcısı və qumbaraatan köməkçisi vəzifələrinə təyin olunub. 2022-ci ilin dekabr ayından isə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun pulemyotçusu vəzifəsində xidmət edir. Hissə və dəstə komandanlığı tərəfindən bacarıqlı, intizamlı hərbi qulluqçu kimi xarakterizə olunur. Funksional vəzifələrinin öhdəsindən layiqincə gəlir. Əzmkar xidmətinə görə dəfələrlə mükafatlandırılıb.

Hərbi qulluqçumuz 2020-ci ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində, eləcə də 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal xarakterli antiterror tədbirlərində iştirak edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə “Şuşanın azad olunmasına görə” medalı ilə təltif olunub.

Baş çavuş H.Quliyev bundan sonra da layiqli xidməti ilə komandirlərinin etimadını doğruldacağına söz verdi. Biz də hərbi qulluqçumuza şərəfli xidmətində uğurlar arzu edirik.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

# HƏR SİQARET ÖMÜRDƏN 15 DƏQİQƏ APARIR

Ölkəmizdə tütün istifadəçilərinin sayı az deyil. Bəzən obrazlı şəkildə deyirlər ki, bir güllə bir siqaretə bərabərdir, çünki hər ikisində nəticə eynidir, hər ikisi öldürür. Tərkibində 4 mindən çox, o cümlədən təyyarə benzinində istifadə olunan maddələrdən tutmuş, həşəratların öldürülməsi üçün nəzərdə tutulmuş dərmanlara qədər ziyanlı madda var. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, il ərzində 8 milyon nəfər tütün məmulatlarından istifadə nəticəsində ağır xəstəliklər taparaq həyata əlvida deyir.



AZƏRTAC xəbər verir ki, həkim-terapevt Coşqun Məmmədli deyib: “On il gündə iki qutu siqaret çəkilməsi 20 il gündə bir qutu siqaret çəkilməsi deməkdir. Tütünün tüstüsü ömürlük öskürək əmələ gətirir. Siqaretin ən çox səbəb olduğu xəstəlik ağciyər xərçəngidir”.

Psixoloqların dediyinə görə isə siqaret əslində beynin yaratdığı asılılıqdır. Psixoloq Aida Sübhan bildirib: “Ağızda elə hüceyrələr var ki, onlar sorulma prosesi nəticəsində beyinə həzzalma ötürür. Sorulma effekti verdiyinə görə beyinə sakitləşdirici təsir göstərir, əslində sakitləşmə effekti oradan gəlir. Ona görə də siqareti tərgitmək istəyənlərə daha çox sorulma konfetlər məsləhət görürük”.

Tütünün onu istifadə edənə vurduğu ziyan bir dərd, məcburi şəkildə tüstüsünə məruz qalanlara mənfi təsiri isə bir başqadır. Unutmayaq ki, hər siqaret ömürdən 15 dəqiqə aparır.

## Allah rəhmət eləsin

64412 saylı hərbi hissənin komandanlığı baş çavuş Elçin Aslanova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**